Azərbaycan
3 aprel 2024-cü il
№ 68.- S.3.
RƏSMİ DÖVLƏT QƏZETİ

# Azərbaycanla Rusiya arasında münasibətlər mehriban qonşuluğa və qarşılıqlı anlaşmaya əsaslanır



**Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Azərbaycanla Rusiya arasında münasibətlərin mehriban qonşuluğa və qarşılıqlı anlaşmaya əsaslandığı, əlaqələrimizin bir çox sahələri əhatə etdiyi qeyd olunub. Bu səfərin də ölkələrimiz arasında əlaqələrin bir göstəricisi olduğu bildirilib. Söhbət zamanı iki ölkə arasında əməkdaşlığın inkişafında dövlət başçılarının şəxsi münasibətlərinin rolu xüsusi vurğulanıb.

Milli Məclisin Sədri xalqlarımız arasında əsrlərboyu davam edən tarixi əlaqələrin mövcud olduğunu, bu münasibətlərin bu gün də uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Spiker Sahibə Qafarova Rusiyada baş vermiş terror hadisəsi ilə əlaqədar başsağlığı verib.

Görüşdə həmçinin ikitərəfli əlaqələrin inkişafında parlamentlərin mühüm rolu vurğulanıb. Qeyd olunub ki, Milli Məclis həm Federasiya Şurası, həm də Dövlət Duması ilə sıx əməkdaşlıq edir. Qarşılıqlı səfərlər, tərəflər arasında müsbət dialoq bu əlaqələrin daha da inkişafına töhfə verir. Dostluq qruplarının qarşılıqlı fəaliyyətinin münasibətlərimizin dərinləşməsinə xidmət etdiyi diqqətə çatdırılıb.

Spiker Sahibə Qafarova özünün Rusiya Federasiyasına rəsmi səfərlərini xatırladaraq Azərbaycan Milli Məclisi ilə Rusiya Federal Məclisinin Dövlət Duması arasında imzalanan əməkdaşlıq haqqında Anlaşma Memorandumunun bu əlaqələrin daha da inkişafına imkanlar yaratdığını vurğulayıb. O, qanunvericilik orqanlarının komitələri arasında əməkdaşlıq məsələlərinin də nəzərdən keçirildiyini söyləyib.

Milli Məclisin Sankt-Peterburq Qanunvericilik Məclisi ilə əlaqələrinin olduğu, Qanunvericilik Məclisinin üzvlərinin ölkəmizə səfər etdiyi də xatırlanıb.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlov Azərbaycan Respublikası ilə Sankt-Peterburq şəhəri arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın yaradılmasının 20-ci ildönümü münasibətilə ölkəmizə səfər etdiyini xatırladıb.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevi xoş xatirələrlə yad edən qubernator deyib ki, bu müdrik şəxsiyyətin əsasını qoyduğu siyasi kursu bu gün Prezident İlham Əliyev böyük uğurla davam etdirir. O, ötən il Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünün qeyd olunduğunu xatırladaraq Sankt - Peterburq şəhərində də geniş tədbirlərin keçirildiyini bildirib.

Qonaq söhbət zamanı həmçinin paytaxt Bakı şəhəri haqqında da xoş xatirələrini bölüşüb və şəhərimizin inkişafının qonaqlarda dərin təəssüratlar yaratdığını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*